

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 51 (21.203)

13 mart 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Martın 12-də Bakıda Azərbaycan-Pakistan Biznes Forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn biznes forumda iştirak ediblər.

Dövlət başçıları forumda çıxış ediblər.

Sonra Azərbaycan Ticarət və Sənaye Palatası və Pakistan Sənaye və Ticarət Palataları Federasiyası arasında Anlaşma Memorandumu imzalandı.

Biznes forum işini təqdimatlarla davam etdirdi.

* * *

Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə rayonuna səfərə gedib.

Dövlətimizin başçısı əvvəlcə şəhərdə yeni salınmış və ulu öndərin adını daşıyan park-bulvarda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev bildirdi ki, bərdəlilərin ulu öndərin xatirəsinə ehtiram əlamətinin rəmzi olan bu möhtəşəm abidə yeni ucaldılıb. Abidənin postamenti və ətrafı orijinal layihə əsasında qurulub.



## “Görkəmli pedaqoq və elm xadimi” adlı elmi konfrans keçirilib



***Martın 12-də AMEA Naxçıvan Bölməsində ədəbiyyatşünas-alim Əziz Şərifin 120 illik yubileyi münasibətilə “Görkəmli pedaqoq və elm xadimi” adlı elmi konfrans keçirilib.***

Elmi konfransı giriş sözü ilə bölmə sədri, akademik İsmayıl Hacıyev açaraq Əziz Şərifin həyat və yaradıcılığı haqqında məlumat verdi. Qeyd edildi ki, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Əziz Şərifin XX əsr Azərbaycan elmi-ədəbi və ictimai fikrinin inkişafında böyük xidmətləri vardır. Professor Əziz Şərif ölkəmizdə və onun hüdudlarından kənarda görkəmli ədəbiyyatşünas, fədakar tərcüməçi və publisist kimi şöhrət qazanıb. Onun adı son yüz ilin adlısanlı Azərbaycan ziyalıları arasında xüsusi iftixarla çəkilir.

Vurğulanıb ki, ədəbiyyatımızın və elmimizin dünyada təbliği və tanıdılmasında ustad alimin müstəsna xidmətləri yüksək qiymətə layiqdir. Azərbaycanın əsas elm və mədəniyyət mərkəzlərindən olan Naxçıvan şəhərində dünyaya gələn Əziz Şərif burada məşhur maarifçi Məhəmməd Tağı Sidqinin rəhbərlik etdiyi “Tərbiyə” məktəbində təhsil alıb. “Gənc Əziz Şərifin 1905-ci ildə Tiflisə gedərək atası Qurbanəli Şərifzadənin yaxın dostu və məsləkdaşı Cəlil Məmmədquluzadənin ailə mühitində yaşaması onun gələcək taleyi üçün mühüm əhəmiyyət kəsb edib”, – deyən akademik bildirdi ki, Cəlil Məmmədquluzadənin evində təşkil olunmuş pansionda dərs oxuyub maariflənməsi, mollanəsrəddinçilərlə tanışlığı Əziz Şərifin sonrakı elmi fəaliyyətinin intişar tapmasında mühüm rol oynayıb.

Elmi konfransda bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov “Azərbaycan memuar janrının ustadı” adlı məruzə ilə çıxış etdi. Fərman Xəlilov Əziz Şərifin gündəliklərinin və xatirələrinin Naxçıvan Muxtar Respublikasının o dövrdəki ictimai-siyasi və mədəni mühitinin mənzərəsini öyrənmək baxımından əhəmiyyətli mənbə olduğunu qeyd etdi.

Filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimli “Əziz Şərifin yaradıcılığında tərcümə məsələləri”, bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayev “Mirzə Cəlilin sadiq müridi”, həmin institutun Ədəbiyyatşünaslıq şöbəsinin elmi işçisi Aygün Orucova “Mollanəsrəddinçilikdən mollanəsrəddinşünaslığa” adlı məruzələrlə çıxışlar etdilər.

Elmi konfransa bölmənin sədri, akademik İsmayıl Hacıyev yekun vurdu.

***Dünən Sədərək Rayon İcra Hakimiyyətində fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə qarşıya qoyulmuş vəzifələrin müzakirəsinə həsr edilmiş yığıncaq keçirilib.***

## Bu il Sədərək rayonunda da idmanın kütləviliyinə nail olunacaqdır

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açıb.

Sonra Sədərək Rayon Təhsil Şöbəsinin müdiri Malik İsmayılov, Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev, Uşaq-gənclər şahmat məktəbinin direktoru Elman Əliyev, Uşaq-gənclər idman məktəbinin direktoru Nizami Bağırov çıxış ediblər. Çıxışlarda Sədərək rayonunda idmanın müxtəlif növlərinin kütləviləşməsi istiqamətində görülən işlərdən, bədən tərbiyəsi və şahmatın ümumtəhsil məktəblərində tədrisi ilə əlaqədar yaradılan şəraitdən bəhs edilib.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev, Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafına göstərilən qayğıdan, qarşıya qoyulan vəzifələrdən danışıblar. Qeyd edilib ki, idmanın kütləviliyinə nail olunması üçün idman və şahmat məktəblərinin kollektivləri məşqlərin müntəzəm keçilməsinə, fəaliyyətin gücləndirilməsinə, həmçinin ümumtəhsil məktəblərində bədən tərbiyəsi və şahmat dərslərinin normal tədrisinə, bunun üçün ixtisaslı kadrların işə cəlb olunmasına diqqəti artırmalıdırlar.

Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov bildirib ki, Sədərəkdə yaxşı nəticələr göstərən idmançılar yetişib. Bu istiqamətdə görülən işləri davam etdirərək idmanın müxtəlif növləri üzrə istedadlı gənclərin üzə çıxarılmasını və onların respublika səviyyəli yarışlarda iştirakını təmin etmək lazımdır. Unutmaq olmaz ki, gənclərimizin sağlamlığının qorunması, fiziki və əqli inkişafının təmin olunması məqsədilə idmana marağın artırılması hər bir idman müəlliminin, məşqçinin əsas vəzifəsi olmalıdır. İcra başçısının sözlərinə görə, rayonda 20-dən çox müasir idman zalı, idman qurğusu yeniyetmə və gənclərin istifadəsinə verilib. Sədərək rayonunda sakinlərin sağlam həyat tərzinin, xüsusən böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində mühüm əhəmiyyətə malik olan bədən tərbiyəsi və idmanın inkişafına geniş yer verilir.



“2014-cü ildə idmanın müxtəlif növləri üzrə muxtar respublika birinciliklərində rayonun voleybol komandası çempion olub”, – deyən Həbib İbrahimov əlavə edib ki, 5 sədərəkli boksçu öz çəki dərəcələrində I, II və III yerləri tutub, yüngül atletika komandasının 5 üzvü mükafatlara layiq görülüb.

Fiziki tərbiyə dərslərinin ümumtəhsil məktəblərində tədrisinin vəziyyətindən də bəhs edən Həbib İbrahimov vurğulayıb ki, bədən tərbiyəsi və idman dərslərinin keçilməsi lazımi səviyyədə deyil. Onun sözlərinə görə, bu fənn lazımi idman qurğuları ilə təchiz olunmuş zallarda deyil, siniflərdə keçilir. Həmçinin qeyd olunan dərslərin axırıncı dərs saatlarına salınması, fənn müəllimlərinin öz işlərinə laqeyd münasibətləri şagirdlərin idman dərslərindən yayınmalarına səbəb olan amillərdəndir. 2015-ci ildə bu nöqsanlara yol verilməməsi üçün Uşaq-gənclər idman məktəbində, ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idmanın təşkili nəzarətə götürülməlidir. Gənclər və İdman İdarəsi, həmçinin Təhsil Şöbəsi idmanın bütün növlərinin inkişaf etdirilməsi və bu sahədə kütləviliyə nail olunması üçün konkret tədbirlər görməlidir. Bundan başqa, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının rayon bölmələri də idmançıların, məşqçi-müəllimlərin peşəkarlıq səviyyələrinin artırılması qayğısına qalmalıdırlar.

## Səyyar xidmətlər əhalinin rahatlığını təmin edir

***Muxtar respublikamızda müasir xidmət növlərinin yaradılması diqqət mərkəzində saxlanılır, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi üçün zəruri tədbirlər həyata keçirilir.***





Məlum olduğu kimi, səyyar xidmətin göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi üçün “Hundai”, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti üçün “NAZ-Lifan-6401” markalı avtomobillər ayrılmışdır. Avtomobillər xidmət sahələrinə uyğun olaraq, səyyar xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilmişdir. Məqsəd əhalinin vaxt itkisinə yol vermədən hüquqi xidmətlərdən yararlanmasını təmin etməkdir.

Martın 10-u və 11-də Sədərək rayonunda, 12-də isə Şərur rayonunun İbadulla kəndində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobili vasitəsilə vətəndaşlara 5 hüquqi xidmət – ümumvətəndaş pasportunun və şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, eləcə də ov silahlarının qeydiyyata alınması üzrə xidmətlər göstərilmişdir.

Həmin gün təkcə İbadulla kəndinin deyil, həmçinin Vərməziyar, Tumaslı, Xanlıqlar, Ələkli, Qışlaqabbas, Ərəbyengicə, Qarahəsənli, Çəmənli və Dərvişlər kəndlərinin də sakinləri səyyar xidmətdən yararlanmışlar. Nazirliyin səyyar xidmət avtomobilində quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportunun, şəxsiyyət və sürücülük vəsiqələrinin digər yaşayış məntəqələrində də vətəndaşlara təqdim olunmasına imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Şərur rayonunun İbadulla kəndində səyyar qaydada daşınmaz əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı və digər xidmətlər göstərilmişdir. Səyyar xidmət zamanı əvvəlcə vətəndaşların ərizələri qəbul olunur və məlumat bazası üzrə uyğunluğu yoxlanılır. Bundan sonra qəbul edilmiş sənədlər rayon şöbələri tərəfindən elektron sistemə salınaraq təsdiq üçün xidmətin mərkəzi aparatına göndərilir. Burada daşınmaz əmlak dövlət reyestrində qeydiyyata alınaraq çıxarış hazırlanır, kağız və elektron variantlarda arxiv yaradılır. Bütün proseslər tamamlandıqdan sonra hazırlanan sənədlər vətəndaşlara çatdırılır.

Hər iki səyyar xidmət avtomobili kənd mərkəzlərinin yaxınlığında fəaliyyət göstərir, xidmətlərə görə rüsumlar POS-terminal və yerlərdəki poçt bölmələri vasitəsilə ödənilir.

Yaşayış məntəqələrində səyyar xidmətin göstərilməsi barədə əvvəlcədən elanlar vurulur və sakinlər arasında müvafiq maarifləndirmə işləri aparılır. Təbii ki, yeni xidmətlərin yaradılması fəaliyyətdə səmərəliliyin artırılması, əhalinin rahatlığının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

**Xəbərlər şöbəsi**

# İzlərdən cığırlara, cığırlardan yollara doğru...

***Naxçıvanda yol-nəqliyyat infrastrukturunun qısa tarixçəsinə nəzər salsaq, görərik ki, əvvəllər qədim diyarımızda yollar, sözün həqiqi mənasında, bərbad vəziyyətdə olub. XX əsrin 50-60-cı illərində yerli əhəmiyyətli yollarda əksər körpülər avtomobil nəqliyyatının, kənd təsərrüfatı texnikasının ağırlığı nəzərə alınmadan primitiv üsulla tikilmişdi və texniki xüsusiyyətlərinə görə dövrün tələbinə cavab vermirdi. Bəzi yerli əhəmiyyətli yollarda körpü keçidlərinin olmaması üzündən avtonəqliyyat vasitələri çayları dayaz yerlərdən keçmək məcburiyyətində qalırdılar. Bu isə həm avtonəqliyyat vasitələrinin vaxtından tez korroziyaya uğramasına, həm də vaxt və yanacaq itkisinə səbəb olurdu.***



Bütövlükdə, muxtar respublikanın yol təsərrüfatı sistemində, xüsusən yerli avtomobil yolları sistemində idarəetmə quruluşu köhnə olduğundan ümumi istifadədə olan yolların saxlanmasını, inkişafı və abadlaşdırılmasını təmin edə bilmirdi. Ötən əsrin 60-cı illərinin sonlarında muxtar respublikada darmadağın olmuş yol təsərrüfatı var idi. Ancaq ulu öndərimizin Azərbaycanın rəhbəri seçilməsindən sonra dağıdılmış infrastrukturun bərpasına başlanıldı.

Muxtar respublikanın Şərq və Qərbin kəsişdiyi coğrafi mövqedə yerləşməsi yeni magistral avtomobil yollarının tikintisinə olan ehtiyacı ortaya çıxarıb. Bu işin həyata keçirilməsi ilə əlaqədar muxtar respublikanın yol işçiləri qarşısında duran ən vacib vəzifə bərk örtüklü yollar tipinə daxil olan təkmilləşdirilmiş örtük yollar şəbəkəsinin genişləndirilməsi, tikilən və mövcud yol və süni qurğularda keyfiyyətin yaxşılaşdırılması, kapital qoyuluşunun səmərəliliyinin təmin olunması, yeni magistral yolların tikintisi idi. Bu vəzifənin uğurla yerinə yetirilməsindən ötrü böyük işlər görüldü. Yol tikintisinin maliyyə və material-texniki təchizatının yaxşılaşdırılması haqqında konkret tədbirlər həyata keçirildi. Yolların tikintisində elmi-texniki tərəqqinin inkişafına və yol tikinti işlərinin kompleks mexanikləşdirilməsinə xüsusi fikir verilməsi istehsalatda əmək məhsuldarlığının artırılmasına imkan yaratdı.

1995-ci ildən başlayaraq yol tikintisində planlaşdırmanın mümkün variantları işlənildi, elmi-texniki tərəqqinin layihə həlli yeniləşdirildi, yol tikinti təsərrüfatlarının maddi-texniki bazası gücləndirildi, yol tikinti materialları istehsal edən müəssisələr fəaliyyətə başladı. Görülən işlər yol tikintisində səmərəliliyin artmasına, keyfiyyətin yaxşılaşmasına və yol tikinti xərclərinin aşağı düşməsinə imkan yaratdı. Əsas məqsədlərdən biri də xərclərin iqtisadi cəhətdən səmərəli işlədilməsindən və yol tikintisinə sərf olunan hər bir manatın iqtisadi cəhətdən daha səmərəli olmasından ibarət idi. Dövlət əhəmiyyətli avtomobil yollarının saxlanması və istismarı işləri daha da yaxşılaşdırıldı, aparılan təmir-tikinti işlərinin təşkili və keyfiyyətinə operativ, işlək nəzarət sistemləri yaradıldı. Yerli əhəmiyyətli avtomobil yollarının texniki vəziyyəti yüksəldildi, avtomobillərin artması və iqtisadiyyatın canlanması ilə artan hərəkət şiddətinə və ağıryüklü nəqliyyatın hərəkətinə cavab verə biləcək yollar salındı. Yerli avtomobil yolları şəbəkəsi muxtar respublikanın iqtisadi inkişaf potensialı ilə tarazlaşdırıldı və bölgələrimizin, eləcə də qəsəbə və kəndlərin sosial-iqtisadi inkişafına təkan verdi. Həyata keçirilən tədbirlər bölgələrimizin sosial-iqtisadi inkişafına güclü təkan verməklə yanaşı, yük daşınmasında maya dəyərinin aşağı düşməsinə, ucqar yaşayış məntəqələri ilə nəqliyyat əlaqələrinin yaxşılaşmasına, turizmin inkişafına və beynəlxalq yükdaşıma həcminin çoxalmasına səbəb oldu. “Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı”na uyğun olaraq, bu gün muxtar respublikada kompleks tədbirlər həyata keçirilir. Bu sahədə son illərin statistikasına nəzər salsaq, muxtar respublikamızda xeyli işlərin görüldüyünün şahidi olarıq. Böyük İpək Yolunun üzərində yerləşən 88 kilometrlik Naxçıvan-Sədərək magistral avtomobil yolu, 8 kilometrdən artıq uzunluğa malik Naxçıvan dairəvi avtomobil yolu, 32 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolu, uzunluğu 39 kilometr olan Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi və uzunluğu 57 kilometr olan Çeşməbasar-Boyəhməd avtomobil yollarının tikintisi dediklərimizin sübutudur. Bundan əlavə, Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun yenidən qurulması da muxtar respublikanın əsas avtomobil yolları şəbəkəsini özündə birləşdirən kompleks quruculuq tədbirlərindəndir. 2014-cü il fevralın 14-də Hacıvar-Vayxır-Sirab avtomobil yolu muxtar respublika sakinlərinin istifadəsinə verilib.





Ümumiyyətlə, 2014-cü ildə muxtar respublikada 73 kilometr uzunluğunda asfalt yollar salınıb, 5 körpü tikilərək istismara verilib. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin kollektivi 2014-cü ili uğurla başa vurub. Şirkətin kollektivi 1473 kilometr yola xidmət edir. Həmin yolların 274 kilometri dövlət və respublika əhəmiyyətli, 1199 kilometri isə yerli əhəmiyyətli yollardır. Kollektiv qış günlərində də ən ucqar yollarda belə, hərəkətin intensivliyinin təmin olunması üçün lazımi tədbirlər görüb. Hazırda 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu yenidən qurulur.

Bu gün ən ucqar məntəqələrə belə yollardan “kəmənd” atılır. Yol rahatlıq, abadlıq, inkişaf, həmçinin vaxta qənaət və bilavasitə əsəb sakitliyi deməkdir. Bütün bunları hədsiz razılıqla qarşılayan sakinlər dövlətimizə minnətdardırlar. Ordubad rayonunun ucqar Bist kəndində Hüseyn Hüseynovdan eşitdiyim sözlərdir: “Yol olan yerdə qonaq-qara da çox olar, xeyir-bərəkət də. Kəndimizə çəkilən yollar, yeni görünüşə qovuşan kəndarası yollar, salınan körpülər əhalini uzun illərin əziyyətindən qurtarıb. Yollar o qədər rahatdır ki, mənzil başına nə vaxt çatdığımdan xəbərim olmur. Ümumiyyətlə, rayonumuzun yollarında yeniliklər bir-birini izləyir, baxdıqca adamın qəlbini dağa döndərir. Hər addımda hiss olunur ki, Ordubad rayonuna dövlət qayğısı hədsizdir”.

Şahbuzun bugünkü növrağı, yollarının abadlaşdırılması ilə haqlı olaraq qürur duyanlardan biri Kükü kənd sakini, kənd tam orta məktəbinin kimya müəllimi Yunis Quliyev düşüncələrini bizimlə bölüşdü: “Bu gün rayonumuzun ən ucqar məntəqələrinin bəzəyi yeni, möhtəşəm tikililərlə bərabər, salınan rahat yollardır. Əvvəllər kəndimizdən Naxçıvan şəhərinə getmək üçün, ən azı, bir saat yarım vaxt tələb olunurdu. Ancaq indi evimdən çıxıb ən müasir nəqliyyat vasitələri ilə şəhərə 40-45 dəqiqəyə çatıram. Həm avtobuslar, həm də yollar təzədir. Bütün bu şəraiti yaradan dövlətimizə kənd sakinləri adından minnətdarlığımı bildirirəm”.

Yolları müasirliyə qovuşan Şərur rayonunun ucqar dağ yaşayış məntəqəsi olan Şahbulaq kəndinin sakini Əşrəf Bağırov sevincini bizimlə bölüşür, elə kəndə aparan yolun kənarında təəssüratlarını dilə gətirir. Deyir ki, 2013-cü ildə kənddə məktəb binasının, kənd və xidmət mərkəzlərinin, yeni avtomobil yolunun istifadəyə verilməsi kənd sakinlərinə sevinc bəxş edib. Rayon mərkəzindən 22 kilometr aralıda yerləşən bu kəndin sakinləri əvvəllər yol sarıdan çox korluq çəkiblər. Ancaq indi bu çətinliklər arxada qalıb. Gələni rahat qarşılayır, gedəni rahat yola salırıq. Gələnlərə “Xoş gəlmisən”, yola saldıqlarımıza “Yaxşı, uğurlu yol” deməyə hünərimiz var. Çünki yollarımız, həqiqətən də, yaxşı, uğurludur.

Şahbulaqdan axşamüstü qayıdanda avtomobilin şüşəsindən Günəşin qürub edişini, batan Günəşin şüaları altında parıldayan yolu seyr edirəm. Əvvəllər də bu kəndə bir neçə dəfə yolum düşüb. O vədələr tozlu-torpaqlı, gölməçəli-palçıqlı olan kəndin yolunu adi dağ cığırından fərqləndirən heç bir cəhət gözümə çarpmırdı. Ancaq indi bu cığırın yerində geniş, rahat yol salınıb.

***Fikirləşirəm ki, son 20 il qədim diyarımızda cığırların yollara çevrildiyi bir müddət, zaman kəsiyi qədirbilən insanlarımız üçün bir diriliş, yüksəliş tarixidir. Nə qədər ki qüdrətli Azərbaycan var, bu tarixin səhifələrində yeniliklərə atılmış imzaların sayı daha çox olacaq.***

✍ **Səbuhi HÜSEYNOV**

## “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti ötən ayı uğurla başa vurmuşdur

*Muxtar respublikada dəmir yolu nəqliyyatı sisteminin inkişafı məqsədilə görülən ardıcıl tədbirlər bu ilin fevral ayında da davam etdirilmiş, yük və sərnişindaşıma xidmətlərinin səviyyəsi daha da yüksəldilmişdir. Ötən ay Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 2 min 596 ton müxtəliftəyinatlı yük daşınmış, 10 min 79 sərnişin dəmir yolu nəqliyyatı xidmətindən istifadə etmişdir.*

Xidmətin fasiləsiz və nümunəvi təşkili məqsədilə profilaktik tədbirlər davam etdirilmiş, Culfa lokomotiv deposunda elektrovozlar 14, teplovozlar 2 dəfə texniki baxışdan keçirilmiş və cari təmir işləri görülmüşdür. Bu dövrdə Culfa vaqon deposunda da vaqonların cari təmiri həyata keçirilmişdir. Bütün hərəkət istiqamətləri üzrə xidməti ərazilərin normal fəaliyyəti də diqqətdə saxlanılmış, İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları tullantılardan təmizlənmiş, yararsız vəziyyətə düşmüş şpallar yenisi ilə əvəz edilmişdir. Xidməti ərazidəki bütün keçidlər, yol yatağı, yoldəyişdirici və süni qurğular yoxlanılaraq çatışmazlıqlar aradan qaldırılmışdır. Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən fevral ayında Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad Yol Sahəsinin inzibati binasının və Ordubad dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir.

Fevral ayında defektoskop briqadası tərəfindən 189 kilometr baş yol, 25 kilometr stansiya yolları, 58 dəst yoldəyişdirici qurğu və 8 min 560 qaynaq calağı yoxlanılmış, xidməti ərazidə müşahidə olunan nasazlıqlar aradan qaldırılmış, müvafiq yerlərdə yollar yenidən tikilmişdir. Rabitə və işarəvermə sahəsi üzrə stansiyalarda qatarların hərəkətinin təhlükəsizliyinin təmin olunması məqsədilə 71 müxtəliftipli rele dəyişdirilmiş, lokomotivlərdə qatar dispetçeri ilə maşinistlər arasında olan radio-rabitə sisteminin işləkliyi diqqətdə saxlanılmış, 5 yararsız blok yenilənmişdir.

Dəmiryol obyektlərinin və elektrovozların fasiləsiz elektrik enerjisi ilə təmin olunması xidmətin fasiləsiz və keyfiyyətli təşkilində əsas amillərdəndir. Buna görə də ötən ay ərzində alçaq və yüksəkgərginlikli elektrik ötürücüsü və kontakt şəbəkəsi xətlərində təmir işləri aparılmışdır. Həmçinin bütün inzibati, texniki və yardımçı binalarda elektrik xətlərinin vəziyyəti və stansiya ərazilərinin, parkların, yükvurma və yükboşaltma meydançalarının işıqlandırılması nəzarətdə saxlanılmışdır.

Ümumiyyətlə, yerlərdə və vaqonlarda yaradılan şərait, həyata keçirilən ardıcıl tədbirlər qış aylarında sərnişinlərə göstərilən xidmətin nümunəvi təşkilinə imkan vermiş, Ordubad-Vəlidağ sahəsində hərəkətdə olan yük-sərnişin qatarlarının fasiləsiz işi təmin olunmuşdur.

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Muxtar respublikada avtonəqliyyat xidməti nümunəvi təşkil edilir

***Muxtar respublikada nəqliyyat infrastrukturu müasir şəhərsalma prinsiplərinə uyğun inkişaf etdirilir, sakinlərin rahatlığına xidmət edən ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi bu istiqamətdə işləri hər ötən ay daha da genişləndirir, xidmətin keyfiyyətinin yüksəldilməsi diqqətdə saxlanılır.***

Bu gün muxtar respublikada daxili sərnişindaşıma xidmətinin səviyyəsi tələbatı tam ödəyir. Hazırda fəaliyyətdə olan 123 marşrut xətti üzrə hərəkət edən 297 avtobus rayon mərkəzləri və kəndlərin hamısını əhatə edir. Ötən ay sərhəd kəndlərinə və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının fəaliyyəti xüsusi nəzarətdə saxlanılmışdır. Nazirlik tərəfindən Ordubad rayonunun ucqar dağ kəndləri olan Bist, Ələhi, Xurs və Nürgüt kəndlərinə yeni marşrut açılması məqsədilə müvafiq tədbirlər görülmüş, ümumilikdə, muxtar respublikada 482 taksinin xidmətindən istifadə olunmuşdur.

Muxtar respublikanın müasir yol-nəqliyyat infrastrukturu daxili daşımalarla yanaşı, beynəlxalq əhəmiyyətli nəqliyyat hərəkətlərinin də inkişafına imkan verir. Muxtar respublika əhalisi üçün mühüm əhəmiyyət kəsb edən Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətləri üzrə avtobus marşrutlarının davamlı fəaliyyəti təmin edilmişdir. Ötən ay baş tutmuş 69 reys vasitəsilə Naxçıvandan Bakıya 2 min 746, əks istiqamət üzrə isə 1930 sərnişin daşınmışdır. Beynəlxalq əməkdaşlığın inkişafı ilə əlaqədar görülən işlərin davamı olaraq, Naxçıvan-Urmiya-Naxçıvan marşrutunun fəaliyyətə başlaması üçün İran İslam Respublikasının “Həmsəfəri Tondrou” şirkətinin nümayəndələri Naxçıvana dəvət edilmiş, qarşılıqlı razılaşma əldə olunaraq müqavilə imzalanmışdır.

“2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”ın icrası ilə əlaqədar şəhərdaxili nəqliyyatda sərnişindaşıma xidmətinin səviyyəsinin yüksəldilməsi sahəsində məqsədyönlü tədbirlər davam etdirilir. Bu məqsədlə yeni avtobusların gətirilməsi nəzərdə tutulur və bunun üçün müvafiq hazırlıqlar görülür. Nazirlik tərəfindən şəhərdaxili nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətini təmin etmək üçün Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin fəaliyyəti daim nəzarətdə saxlanılır. Hesabat dövründə təhlükəsiz və rahat idarə olunması üçün avtobuslara gündəlik texniki baxış keçirilmiş, nasaz hissələri təmir olunmuş və ya yenisi ilə əvəz edilmişdir.

Qanunvericiliyə uyğun olaraq, avtomobillərin qeydiyyata alınması və qanunsuz sahibkarlıqla məşğulolma hallarının qarşısının alınması da daim diqqətdə saxlanılır. Belə ki, fevral ayında 26 fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 35 avtonəqliyyat vasitəsinə lisenziya kartları verilmiş və avtonəqliyyat vasitəsi sahiblərinin “Fərqlənmə nişanı” alması təmin edilmişdir. Həmçinin ötən ay sərnişindaşıma ilə məşğul olan avtobusların təmizliyinə və hərəkət qrafikinə, xüsusilə axşam saatlarında şəhərdaxili marşrutların işinin daha səmərəli qurulmasına nəzarət gücləndirilmişdir.

Nazirliyin reyd komissiyası ay ərzində Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi ilə birlikdə reydləri davam etdirmiş, qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitələri müəyyən olunmuş və əlaqədar tədbirlər görülməsi üçün müvafiq təşkilatlara məlumat göndərilmişdir. Avtomobil yolları ilə ağırçəkili və iriqabaritli nəqliyyat vasitələrinin hərəkət etməsinə nəzarət və onların hərəkətinə xüsusi icazənin verilməsi qaydalarına uyğun olaraq işlər fevral ayında da davam etdirilmişdir. Bu məqsədlə yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilmiş, sürücülərə yükdaşımalar zamanı təhlükəsizlik tədbirləri barədə məlumatlar verilmiş və tələblərə cavab verən 156 nəqliyyat vasitəsinə “İcazə blankı” verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Müəllimlərin attestasiyası davam etdirilir

Martın 11-də müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması və onların əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərində çalışan "gənclərin çağırışaqədərki hazırlığı" və "fiziki tərbiyə" fənlərini tədris edən müəllimlərin attestasiyası keçirilib. "Gənclərin çağırışaqədərki hazırlığı" fənni üzrə 172, "fiziki tərbiyə" fənni üzrə isə 316 nəfər olmaqla imtahanda, ümumilikdə, muxtar respublika üzrə 488 müəllim iştirak edib. Qeyd edək ki, imtahanlar Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə, Şərur şəhər 2 nömrəli tam orta məktəbdə, Babək rayon Babək qəsəbə tam orta məktəbində, Culfa şəhər 3 nömrəli tam orta məktəbdə, Ordubad rayon internat məktəbində, Şahbuz rayon 1 nömrəli tam orta məktəbdə, Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbində və Sədərək rayon Heydərabad qəsəbə tam orta məktəbində keçirilib.

Dünən isə "coğrafiya" fənnindən attestasiya olub.

İki saat müddətində yazılı test formasında keçirilən attestasiyada müəllimlərə 80 sual (40 ixtisas, 25 metodika və kurikulum, 15 informasiya-kommunikasiya texnologiyalarından) təqdim olunub.

Qeyd edək ki, 1 mart 2015-ci il tarixdən bu günədək muxtar respublikada "Azərbaycan dili və ədəbiyyat", "tarix", "fizika", "kimya" və "biologiya" fənləri üzrə də ixtisas müəllimlərinin attestasiya imtahanları keçirilib.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Fevral ayında muxtar respublikamızda epidemioloji vəziyyət sabit olmuş, zəhərlənmələr baş verməmiş, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilmişdir.***

Yeni doğulmuş uşaqların 96,1 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd almışdır. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai-iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilmiş, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, tullantı və çirkab suları axıdılan yerlərdə, məişət tullantıları qoyulan meydançalarda 15908 kvadratmetr dezinfeksiya tədbirləri həyata keçirilmişdir.

İstehsal olunmuş məhsulların sertifikatlaşdırılması işi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə aparılmış, 36 məhsul sertifikatlaşdırılmışdır.

Ay ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirmiş, 46 su, 284 yuyuntu nümunələrinin, 412 digər nümunələrin müayinələri aparılmışdır.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılmış, səhiyyə üzrə 203, təhsil üzrə 191, qidalanma sənayesi, ictimai-iaşə və ticarət üzrə 263, kommunal sahələr üzrə 68, sürücülük üzrə 120 nəfər olmaqla, bütövlükdə, 845 nəfər müayinədən keçmişdir.

Radioloji qrup tərəfindən 12 yerdə gündəlik olaraq radioloji ölçmələr aparılmış, təbii fon şüalanması yol verilən hədd daxilində olmuşdur. Qidalanma gigiyenası laboratoriyasında 81 nümunədə 324 müayinə aparılmış, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 8 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilmişdir.

Kommunal gigiyena laboratoriyasında 89 nümunədə 712, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 19 nümunədə 76 müayinə aparılmışdır. Əhalinin sanitariya sahəsində maarifləndirilməsi ardıcıl şəkildə aparılmış, 25 mühazirə oxunmuş, 2 seminar keçirilmiş, tibbi şurada 6 məsələ müzakirə edilmişdir.

"İstehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər"lə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində 8 iyun 2011-ci ildə keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı tikinti və inşaat obyektlərində nəzarət yoxlamaları aparılmışdır.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılmış, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Böyük xatirələrin kiçik yazısı

***Şəhərimizdə bir ünvan var: adına "Böyük bağ" deyirlər. Naxçıvan şəhərində böyüklü-kiçikli elə bir adam tapılmaz ki, buranı tanımasın. Əsasən, kiçik və orta şəhərlərə xas "ünvanı təyinetmə" prinsipi kimi bu ərazinin "kompas" rolu oynaması indiyədək xalqın, daha doğrusu, şəhər əhalisinin yaddaşında qalmaqdadır. Məsələn, "Böyük bağın yanı", "Böyük bağın aşağısı" və sair kimi ifadələr hələ də şəhər sakinlərinin dilində işlək olmaqla gediləcək yerin bağa görə hansı səmtdə yerləşməsini təyin edib.***

Böyük bağ haqqında mənbələrdə elə də səhih məlumatlar yoxdur. Ancaq deyilənə görə, bağ çar Rusiyası dövründə şəhərdə fəaliyyət göstərən qubernator tərəfindən salınıb. Nisbətən həndəsi trapesiyaya oxşarlığı ilə diqqətçəkən bu ərazi şəhərin qərb hissəsində yerləşir. Xülasə, bilinən odur ki, hətta indiki ən yaşlı sakinlər belə, necə deyərlər, gözünü açandan buranı belə görüblər. Bu isə onu deməyə əsas verir ki, Böyük bağ Naxçıvanın muxtariyyət dövrünə şahidlik etmiş tarixi-ekoloji abidələrindən biridir. Yox, söhbətimizin mövzusu heç də muxtariyyətlə bağlı deyil, sadəcə olaraq, Naxçıvan şəhərində hələ də öz gözəlliyi və hər iki əsrə şahidlik edən, qoca ağacları ilə sakinlərin əsl istirahət məkanına çevrilən bağın keçmişinə və bu gününə nəzər salmaq istədik. Böyük xatirələri bu kiçik yazıya sığışdırmaq xatirinə olsa da...

Qeyd etdiyimiz kimi, Böyük bağ haqqında tarixi mənbələrdə dəqiq məlumatlar olmadığına görə, yazımızı da, əsasən, yaşlı sakinlərin xatirələri əsasında ərsəyə gətirməyə çalışacağıq. Sovetlər Birliyi dövründə "proletariatın dahi rəhbəri"nin adına hər bir şəhərdə mədəniyyət və istirahət parkları olduğu kimi, Naxçıvan şəhərində də bu "missiyanı" Böyük bağ daşıyıb. Ötən əsrin 50-ci illərində, hətta ondan da əvvəl bura "V.İ.Lenin adına Mədəniyyət və İstirahət Parkı" adı qoyulsa da, sakinlər buranı həmişə "Böyük bağ" adlandırıb, onu bu adla tanıyıblar. Qocaman jurnalist, Naxçıvan mətbuatının ağsaqqallarından biri olan Səxavət Kəngərli deyir ki, II Dünya müharibəsi dövründə Naxçıvan Dövlət Dram Teatrı bu bağda fəaliyyət göstərirdi. Müharibədən sonra buradakı teatr binasında güclü yanğın olur və bina tamamilə yararsız vəziyyətə düşür. 1964-cü ildə teatr indi fəaliyyət göstərdiyi yerə köçürülür. Səxavət müəllim bildirir ki, vaxtilə bağda hündürlüyü 70 metrə çatan qüllə olub. Şəhərin həyəcan və risk sevən gəncləri bu qülləyə çıxaraq oradan paraşütlə tullanırdılar. 1941-ci ildə bir axşamüstü bağda böyük bir partlayış oldu. Şəhər əhalisi bərk təşvişə düşmüşdü. Bir çoxları kimi, biz də yaşıdlarımızla qaçaraq bağa gəldik və mənzərəni uzaqdan seyr etməyə başladıq. Məlum oldu ki, bağdakı qülləni partladırlar. Birinci partlayışdan sonra qüllə əyilsə də, tam yıxılmamışdı. İkinci partlayış isə qüllənin mövcudluğuna son qoydu. Həmsöhbətim qeyd edir ki, müharibədən sonrakı illərdə burada heç bir şərait olmasa da, biz gənclər yenə də bağa gəlirdik. O zaman bağda qalan yeganə istirahət obyekti Naxçıvan Dövlət Filarmoniyasının binası idi. Hər kəs bura mədəniyyət sarayı deyirdi. Müharibədən sonra bütün təntənəli yığıncaqlar, ziyafətlər, rəsmi tədbirlər bu sarayda keçirilirdi. Əyləncə üçün isə, sadəcə, bir bilyard və bir şahmat stolu vardı. 1948-ci ildə burada nəfəsli orkestr təşkil olundu.











Səxavət müəllim yaddaşına bağla əlaqədar həkk olunmuş bir xatirəni də danışır: "1949-cu ildə Naxçıvan MSSR-in 25 illik yubileyinin keçirilməsi ilə bağlı hazırlıq işləri görülürdü. Yubiley yığıncağını keçirmək üçün mədəniyyət sarayının yanında yay estradası tikilirdi. Ərazidə torpaq işləri aparan zaman, təxminən, bir metr dərinlikdə sal daşın altından üç insan skeleti tapıldı. Ancaq ən maraqlısı bu idi ki, sümüklərə toxunan zaman onlar qum kimi ovulmağa başladı. Sümüyün ovulması prosesinin torpağın altında 3-4 min ildən sonra baş verməsini söyləyən mütəxəssislər Naxçıvanın qədim insan məskəni olduğuna bir daha şahid oldular".

...Böyük bağ tarixin bütün dövrlərində şəhər sakinlərinin istirahət məkanı olub. Adil Musayev adlı sakin yaşının bütün dövrlərində bu bağa mütəmadi gəldiyini bildirir: "78 yaşım var, şəhərdə doğulmuşam. Sovet dövründə tikintidə sürücü işləmişəm. O zaman da işdən çıxdıqdan sonra yoldaşlarımızla bura gəlib bir çay içməmiş evə getmirdik. Bu sanki vərdiş halını almışdı. Həm də işdən sonra bütün yorğunluğumuz elə bil ki, bu bağda çıxırdı. Burada çox xatirələrimiz olub. Cavan vaxtı idmana böyük maraq göstərirdim. Ancaq o zaman indiki kimi şəraitli yerlər yox idi. Yadımdadır, 12-13 yaşım olardı. Burada voleybol, basketbol oynamaq üçün yerlər düzəldilmişdi. Bizdən böyüklər gəlib burada oynayanda onlara maraqla baxırdıq. Bəzən onlardan biri oyunu tərk edəndə mənə də oynamaq fürsəti qismət olurdu. Çünki yaşıdlarıma görə mənim boyum daha uca idi. Bağa gələnlər də çox idi. Bir də görürdün, xəbər yayılırdı ki, Bakıdan hansısa tanınmış bir müğənni gəlib, konsert olacaq. O zaman bütün şəhər əhli bağa konsertə baxmağa gəlirdi. Bir də görürdün, xanəndələr gəlib, sərin ağacların altında oxuyurlar, hamı da diqqətlə qulaq asırdı. Mahnı qurtaran kimi böyük alqış sədaları qopurdu. Oğul, gördüyün bu bağ çox belə konsertlərə, idmançıların oyununa şahidlik edib".

Ancaq Adil dayı bağın "xoş olmayan günləri" olduğunu da deməyi unutmadı: "90-cı illərdə vəziyyət çox ağır idi. Camaatın gününün çoxu çörək növbələrində keçirdi. İşığın, qazın olmadığı o zamanlar bağın da ağaclarından bir neçəsi kəsilmişdi. Ancaq bura (əli ilə ətrafı göstərir) göz qabağı olduğundan o qədər də çox kəsə bilməmişdilər. Şəxsən mənə əsas təsir edən o idi ki, mən gözümü açıb o ağacları elə uca görmüşdüm".

Valeh Hətəmov bağın, necə deyərlər, daimi sakinlərindən biri olduğunu deyir: "Mənim gəncliyimin çox hissəsi burada keçib, indi təqaüdçüyəm, bağa tez-tez gəlirəm. Əslində, bir müddətdir ki, hava soyuqdur deyə gəlmirdim. Ancaq bu gün, deyəsən, yaxşıdır. Yay zamanı, demək olar ki, hər gün bura gəlirik, yoldaşlarımızla çay içib söhbət edirik".

81 yaşlı Valeh dayı buranı seçməyinin səbəbini özünəməxsus dillə belə izah edir: "Böyük bağ bizim daim söhbətləşdiyimiz, dərd-sərimizi paylaşdığımız yerdir. Üç yoldaşıq, (əli ilə Adil Musayevi göstərir) ancaq biri bu gün gəlməyib. Bizim heç birimizin əl telefonu (mobil telefon) yoxdur. Bağa gəlmək üçün müəyyən vaxtımız var ki, o saatda bura gəlirik. Mən yeniyetmə dövrümdən bura gəlib-gedirəm. Adil doğru dedi, o zaman burada indiki kimi şərait yox idi. Yadıma gəlir, Əliabadda qaldığımız zamanlar teztez uşaqlıq dostlarımızla bura gəlirdik. Bir də görürdün, əvvəlcədən şəhərin digər məhəllələrindən olan uşaqlarla razılaşırdıq ki, bu gün bağda güləşmə olacaq. "Əlixan", "Xoşulu" və digər məhəllələrdən gələn yaşıdlarımızla güləşirdik. Digər məhəllə uşaqları ilə sözümüz çəp gələndə də bağa üz tuturduq. "Söhbətimizi" bitirəndən sonra hərə öz evinə dağılışırdı. Ancaq bu sirr elə bağın özündə qalırdı. Böyüklərin bu işdən xəbər tutması yaşıdlarımız arasında yaxşı qarşılanmırdı..."

Hər iki müsahibimizlə bağda çay içə-içə xeyli söhbət edirik. Maraqlı burasıdır ki, indi bu cür "ənənələrin" olmamasını da həmsöhbətlərim onunla əlaqələndirirlər ki, o zaman yeniyetmələrin, gənclərin asudə vaxtlarını dəyərləndirəcək indiki imkanlar yox idi. İndi şəhərimizin hansı guşəsinə getsək, gənclərlə bağlı nə qədər layihələrin həyata keçirildiyinin şahidi olarıq. Elə söhbət açdığımız Böyük bağda da müasir Çay evinin, Əyləncə Mərkəzinin fəaliyyəti dediklərimizin sübutudur.

***İndi Böyük bağ şəhər sakinlərinin rahatlıq tapdığı, şirin-şirin söhbətləşdiyi, əyləndiyi, istirahət etdiyi bir məkandır. Bu məkanda yaşlıların da, gənclərin də öz yeri var. Bir azdan havalar daha da isinəcək, bağa yolu düşənlərin sayı çoxalacaq. Böyük bağ sakinləri qoynuna almaq üçün yenidən qollarını açacaq, onların istirahətlərini təmin edəcək. Beləcə, bağın qoynunda yeni xatirələr yaranacaq. Bu xatirələri gələcək nəslə məhz Böyük bağ daşıyacaq...***

**Səbuhi HƏSƏNOV**

## Abdulla Murtuz oğlu Babayev

Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Abdulla Murtuz oğlu Babayev 2015-ci il mart ayının 10-da, ömrünün 91-ci ilində vəfat etmişdir.

Abdulla Murtuz oğlu Babayev 1924-cü il aprelin 1-də Babək rayonunun Tumbul kəndində anadan olmuşdur. 1941-ci ildə orta məktəbi bitirən Abdulla Babayev 1959-cu ilə qədər Naxçıvan dəmiryol hissəsində müxtəlif vəzifələrdə çalışmışdır. 1959-2011-ci illərdə Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblının solisti kimi fəaliyyət göstərən Abdulla Babayev öz repertuarını daim zənginləşdirmiş, Azərbaycan muğamlarının, xalq və bəstəkar mahnılarının mahir ifaçısı kimi böyük tamaşaçı rəğbəti qazanmışdır. Onun ifasında səslənən "Naxçıvan", "O Naxçıvandır", "Təki sən səslə məni" mahnıları bu gün də sevilə-sevilə dinlənilir. Abdulla Babayev Rusiya, Qazaxıstan, Özbəkistan, Tacikistan, Gürcüstan və Türkiyədə qastrol səfərlərində olmuş, Azərbaycan musiqisinin təbliği və yaşadılması istiqamətində mühüm xidmətlər göstərmişdir.



Əməyi yüksək qiymətləndirilən Abdulla Babayev 1970-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti", 1998-ci ildə isə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülmüş, 1996-cı ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Abdulla Babayev 2002-ci ildən Prezident təqaüdçüsü idi.

Ömrünü milli musiqimizin təbliği və inkişafına həsr edən Abdulla Babayevin xatirəsi unudulmayacaqdır.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi**

***Dünən Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının yığıncağı keçirilib.***

## Voleybol Federasiyasının yığıncağı keçirilib

Yığıncaqda Voleybol Federasiyasının ötənilki nəticələri, qarşıda duran vəzifələr müzakirə edilib, görüləcək işlərlə bağlı tədbirlər planı təsdiq edilib.

Tədbiri giriş sözü ilə Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev açaraq 21 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədən irəli gələn vəzifələrdən, bu vəzifələrin yüksək keyfiyyətlə həyata keçirilməsi, voleybol idman növünün kütləviliyinin təmin olunması, uşaq, yeniyetmə və gənclərin bu sahəyə cəlb edilmələri ilə bağlı görülən işlərdən danışıb.



Yığıncaqda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Taleh İbrahimovun, Culfa rayon voleybol yığmasının məşqçi-müəllimi Afiyəddin Cəfərovun, Şərur rayon yığmasının məşqçi-müəllimi Mirfəddin Seyidovun çıxışları olub.

**Xəbərlər şöbəsi**

***Azərbaycan Respublikası ərazisində istismarda olan nəqliyyat vasitələrinin texniki vəziyyəti yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Bu işin tənzimlənməsi baxımından respublikada yol hərəkəti təhlükəsizliyinin texniki normativlərinə və standartlarına dair kifayət qədər normativ-hüquqi baza yaradılmışdır. Belə ki, nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi, onların texniki vəziyyətinə nəzarət və cavabdehlik kimi məsələlər 3 iyul 1998-ci il tarixdə qəbul edilmiş "Yol hərəkəti haqqında" Qanunda öz əksini tapmışdır.***

## Yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında nəqliyyat vasitələrinə texniki nəzarətin əhəmiyyəti

Nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsinin məqsədi nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə istismar olunmasının təmin edilməsi və texniki nasazlıq səbəbindən baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınmasından ibarətdir.

Nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsində dövlət yol polisinin qarşısında aşağıdakı vəzifələr durur:

*- nəqliyyat vasitələrinin texniki vəziyyətinə texniki baxışlararası müddətlərdə nəzarət etmək, dövri texniki baxışları həyata keçirmək, konstruksiyası və texniki vəziyyəti müəyyən olunmuş standartlara, habelə mühərrik, ban və şassi nömrələri qeydiyyat sənədlərində göstərilmiş nömrələrə uyğun gəlməyən nəqliyyat vasitələrinin istismarını qadağan etmək;*

*- nəqliyyat vasitələrinin konstruksiyasının hazırlanmasına və yenidən quraşdırılmasına, aqreqat, ban və ban hissələrinin dəyişdirilməsinə icazə vermək və yol hərəkəti təhlükəsizliyinin tələblərinə, dövlət standartlarına, normativ sənədlərə uyğun olmasına nəzarət etmək;*

*- mürəkkəb quruluşlu avadanlıqlaşdırma aparılan nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyi ilə bağlı tələblərə uyğunluğu baxımından texniki layihə sənədlərinə müvafiq rəylər vermək, onların sınaqlarının keçirilməsində iştirak etmək, tələblərə cavab verməyən nümunələr barədə müvafiq orqanlara təqdimat göndərmək;*

*- nəqliyyat vasitələrinin zərərli tullantılarından ətraf mühitin qorunması sahəsində qüvvədə olan qaydaların, normativlərin, standartların tələblərinə riayət edilməsinə nəzarəti həyata keçirmək;*

*- təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisələr, idarələr, təşkilatlar və fiziki şəxslər tərəfindən yol hərəkətinin təhlükəsizliyinin təmin olunması sahəsində qüvvədə olan qaydaların, normativlərin və standartların tələblərinə riayət edilməsinə müstəqil və ya müvafiq səlahiyyətli orqanlarla birlikdə nəzarət etmək.*

"Yol hərəkəti haqqında" Qanunla müəyyən edilmiş qaydalara görə, Azərbaycan Respublikası ərazisində yol hərəkəti təhlükəsizliyi və ətraf mühitin mühafizəsi baxımından mövcud texniki tələblərə və normalara uyğun olan nəqliyyat vasitələri yol hərəkətində iştirak etməyə buraxılır.

Texniki cəhətdən nasaz olan nəqliyyat vasitələri yol hərəkətinə buraxılmır. Nəqliyyat vasitələrinin istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların siyahısı "Yol hərəkəti haqqında" Qanuna 1 saylı əlavədə öz əksini tapmışdır.

Nəqliyyatın istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların aradan qaldırılması üçün "Yol hərəkəti haqqında" Qanunun 30-cu maddəsinin 2-ci hissəsində nəqliyyat vasitələri sahiblərinin və ya onların texniki vəziyyətinə məsul olan şəxslərin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

*- nəqliyyat vasitələrinin istismarı zamanı onların texniki vəziyyətinə dair müəyyən edilmiş tələblərə riayət edilməsi;*

*- nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə saxlanılması üçün onlara vaxtlı-vaxtında texniki xidmət göstərilməsi;*

*- texniki vəziyyəti dövlət standartlarının, yol hərəkəti qaydalarının tələblərinə uyğun gəlməyən, habelə müəyyənləşdirilmiş qaydada qeydə alınmamış, normativ tələblər pozulmaqla avadanlığı dəyişdirilmiş və ya texniki baxışdan keçməmiş nəqliyyat vasitələrinin istismarına yol verilməməsi.*

Muxtar respublikada qeydiyyatda olan 37 mindən çox avtomotonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət bir neçə istiqamətdə dövlət yol polisi əməkdaşları tərəfindən həyata keçirilir.

Avtomobil yollarında nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət "Yol hərəkəti haqqında" Qanunun tələblərinə riayət edilməklə aparılır. Texniki vəziyyətinə görə yol-nəqliyyat hadisəsi törədəcəyi aşkar müşahidə olunan, xarici görünüşü səliqəsiz və ya həmin qanunun 1 saylı əlavəsində göstərilən tələblərə uyğun gəlməyən nəqliyyat vasitələri saxlanılaraq müvafiq qaydada müayinə olunur. Bu zaman nəqliyyat vasitəsinin texniki vəziyyətinə nəzarət mümkün qədər qısa müddət ərzində aparılmalı, müayinə zamanı digər hərəkət iştirakçılarına maneçilik törədilməməlidir. Yollarda təcili yardım, yanğınsöndürən, poçtdaşıyan, inkassator, texniki-qəza xidməti, daxili işlər və milli təhlükəsizlik orqanlarının əməliyyat avtomobilləri və hərbi avtomobillər, partlayıcı, yanğın təhlükəli, radioaktiv və başqa təhlükəli yükdaşıyan nəqliyyat vasitələri, həmçinin içərisində sərnişin olan avtobus və taksilər texniki vəziyyətinə görə müayinə edilmir. Xətdə işləyən avtobusların texniki vəziyyəti son dayanacaqlarda və ya avtovağzallarda yoxlanıla bilər.

Nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılması üçün "Yol hərəkəti haqqında" Qanunun müddəaları ilə müəyyənləşdirilmiş əsas normalardan biri də nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi şərtləridir.

Muxtar respublika ərazisində qeydiyyatda olan nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışın keçirilməsinə nəzarət və bu fəaliyyət prosesində meydana çıxan digər münasibətlər "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu, Nazirlər Kabinetinin 15 mart 1999-cu il tarixli Qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında" Əsasnamə və digər normativ-hüquqi sənədlərlə tənzimlənir.

Hüquqi və fiziki şəxslərə məxsus olan, mühərrikinin işçi həcmi 50 kub/sm və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan nəqliyyat vasitələrinin illik texniki baxışı müvafiq olaraq dövlət yol polisi orqanlarında həyata keçirilir.

Tırtıllı mexaniki nəqliyyat vasitələrinə, traktorlara, kənd təsərrüfatında istifadə olunan mexaniki nəqliyyat vasitələrinə illik texniki baxış onların dövlət qeydiyyatını aparan Kənd Təsərrüfatı Nazirliyinin müvafiq orqanlarında həyata keçirilir.

Muxtar respublika ərazisində daimi və müvəqqəti qeydiyyatda olan və mülkiyyət formasından asılı olmayaraq, bütün mexaniki nəqliyyat vasitələrinə və qoşqulara dövlət texniki baxışının qanunvericilikdə nəzərdə tutulmuş qaydada yanvar ayının 1-dən oktyabr ayının 31-dək olan müddətdə həyata keçirilməsi müəyyənləşdirilmişdir.

Texniki baxışa təqdim olunan nəqliyyat vasitələrinin axınının qeydiyyata salınması, vətəndaşlara göstərilən xidmətin təşkilinin yaxşılaşdırılması, vaxt itkisinə yol verilməməsi, habelə müayinənin keyfiyyətinin artırılması məqsədilə avtomobillərin markaları nəzərə alınmaqla aşağıdakı müddətlər müəyyən edilmişdir.

*1. VAZ, QAZ, ZAZ, Moskviç, UAZ və digər MDB istehsalı olan avtomobillər – yanvar, fevral, mart ayları.*

*2. Xarici ölkələrdə və onların baza modelləri əsasında istehsal olunan minik avtomobilləri – may, iyun, iyul ayları.*

*3. Yük avtomobilləri və avtobuslar – avqust, sentyabr, oktyabr ayları.*

Nəqliyyat vasitələri müəyyən edilmiş müddətlərdən əvvəl də texniki baxışa təqdim edilə bilər.

Şərur və Culfa rayon dövlət yol polisinin müayinə məntəqələrinin yaradılması ilə əlaqədar bu rayonlardan olan hüquqi və fiziki şəxslərə məxsus nəqliyyat vasitələrinin dövlət texniki baxışının məhz bu müayinə mərkəzlərində keçirilməsinə üstünlük veriləcəkdir. Burada nəqliyyatın texniki vəziyyətinə düzgün qiymət veriləcək və nəqliyyatın nasaz hissəsi dəqiq müəyyənləşdirilərək aradan qaldırılması üçün tədbirlər görüləcəkdir.

Nəqliyyatın texniki baxışdan keçirilməsi zamanı nəzarət-ölçü cihazlarının və avadanlıqların tətbiqinə, eyni zamanda hər bir nəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrin miqdarının normaya uyğun olmasına ciddi nəzarət təmin ediləcəkdir. Müasir dövrdə buna ciddi nəzarət edilməsi insanların sağlamlığı üçün mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri tərəfindən müəyyən edilmiş qaydada və müddətdə nəqliyyat vasitəsini texniki baxışdan keçirməməyə görə fiziki şəxslər 50 manat cərimə olunurlar.

Eyni zamanda sürücülər tərəfindən nasaz olan nəqliyyat vasitələrinin idarə olunmasına görə və ya texniki vəziyyətinə dair tələblərin pozulmasına görə 50 manat cərimə edilir.

Muxtar respublika ərazisində nəqliyyat vasitələrinə dövlət texniki baxışının keyfiyyətinin yüksəldilməsi üçün texniki tələblərə cavab verən və müasir nəzarət-ölçü cihazları və avadanlıqları ilə təchiz olunmuş müayinə mərkəzləri fəaliyyət göstərir. Tormoz və sükan mexanizmlərində elə nasazlıqlar olur ki, onu gözlə görmək mümkün deyildir. Bu nasazlıqları ancaq nəzarət-ölçü avadanlıqları ilə aşkar etmək mümkündür.

***Yol hərəkətinin təhlükəsizliyinin təmin olunması, o cümlədən nəqliyyatın texniki vəziyyətinə müayinənin və nəzarətin təmin edilməsinə də dövlət yol polisi tərəfindən gündəlik nəzarət həyata keçiriləcəkdir.***

**Əli TAĞIYEV**
***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki***

## Məhdud fiziki imkanlı şəxslərə səyyar xidmət göstərilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən protez-ortopedik məmulatlarına və texniki-bərpa vasitələrinə ehtiyacı olan məhdud fiziki imkanlı 76 şəxsə, o cümlədən 22 ahıla və sağlamlıq imkanları məhdud 9 uşağa növbəti səyyar xidmət göstərilib. Tibbi-texniki heyət məhdud fiziki imkanlı şəxslərin evlərinə gedərək onların ehtiyacları ilə maraqlanıb, 13 nəfərdən protez və ortez sifarişləri qəbul edilib, 3 nəfərin protezləri təmir olunub, 10 nəfərə protez-ortopedik məmulatlar, eyni zamanda 76 nəfərə texniki-bərpa vasitələri, o cümlədən 15 nəfərə eşitmə aparatı, 61 nəfərə isə müxtəlif növ əsalar verilib.

Məhdud fiziki imkanlı şəxslərə səyyar xidmət il ərzində davam etdiriləcək.

Məlumat üçün bildirək ki, ötən il bu kateqoriyadan olan 294 şəxs texniki reabilitasiya vasitələri ilə, 139 şəxs sanatoriya və pansionatlarda müalicələri üçün göndərişlərlə, 216 şəxs protez-ortopedik məmulatlarla təmin olunub, 218 şəxs isə Naxçıvan Əlillərin Bərpa Mərkəzində müalicə kursu keçib. Eyni zamanda qeyd olunan dövrdə müvafiq kateqoriyadan olan 89 şəxsə minik avtomobili verilib.

## Aztəminatlı ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən daxil olan məlumata görə, Kəngərli rayonunun Xok kəndində yaşayan aztəminatlı Məmmədovlar ailəsinə baş çəkilmişdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin əməkdaşları aztəminatlı ailənin yaşayış vəziyyəti ilə maraqlanmış, ailə üzvlərini tibbi müayinədən keçirmiş, ailəyə məişət əşyası və ərzaq payı vermişlər.

Aztəminatlı ailənin üzvləri onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, muxtar respublikada əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər aztəminatlı ailələri də əhatə etmişdir. Bu qrupdan olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ünvanlı dövlət sosial yardımların təyin olunması, əmək qabiliyyətli ailə üzvlərinin məşğulluq problemlərinin həll edilməsi, əlil və ahılların təqaüdlərinin vaxtlı-vaxtında verilməsi bu səpkidə görülən işlərdəndir.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 220